

*"Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır".*
*Heydər Əliyev*


*Heydər Əliyev - xalq birliyi əbədidir!*

# AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır | İctimai-siyasi qəzet | № 20 (808) | 22 oktyabr 2015-ci il | Qiymətі 50 qəpik

**Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı**


## Prezident İlham Əliyev Sabunçu Məhkəmə Kompleksinin yeni binasının açılışında iştirak edib



Dövlətimizin başçısı əvvəlcə Sabunçu Rayon Məhkəməsinin köhnə binasının, eləcə də Azərbaycan Hökumətinin Dünya Bankı ilə birgə maliyyələşdirdiyi və Ədliyyə Nazirliyinin həyata keçirdiyi "Ədliyyə sisteminin müasirləşdirilməsi" layihəsi çərçivəsində hazırlanan müasir məhkəmə bina və komplekslərinin layihələrini əks etdirən stendlərə baxdı.

Ədliyyə naziri Fikrət Məmmədov yeni binanın inşası və burada yaradılan yüksək şərait barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, kompleksin ümumi sahəsi 9 min kvadratmetr olan yeddimərtəbəli binasının inşasına 2012-ci ilin oktyabrında başlanılıb. Tikinti işləri ən müasir standartlara uyğun aparılıb. "Əlillərin hüquqlarının qorunması haqqında" Konvensiyanın tələblərinə müvafiq olaraq binada onlar üçün bütün zəruri şərait yaradılıb. Əlillərin binaya daxil olması üçün xüsusi qurğu quraşdırılıb.

Prezident İlham Əliyev Sabunçu Məhkəmə Kompleksinin yeni binasının rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, bina Azərbaycan Hökumətinin Dünya Bankı ilə birgə maliyyələşdirdiyi və Ədliyyə Nazirliyinin həyata keçirdiyi "Ədliyyə sisteminin müasirləşdirilməsi" layihəsi çərçivəsində inşa olunub.

Binanın foyesində ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin ölkəmizdə məhkəmə-hüquq sisteminin inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotoguşələr yaradılıb.



Prezident İlham Əliyev Bakıda Nəriman Nərimanovun heykəli, Hüseyn Cavid və Parlament prospektləri ətrafında yeni çəkilən yolların, bu ərazidə yenidən qurulan küçə və prospektlərin, yeni salınan parkların açılışında iştirak edib.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov Azərbaycan Prezidentinə görülən işlər barədə məlumat verdi.



## Ağstafa rayon icra hakimiyyəti başçısının SƏRƏNCAMI

İstedadlı uşaqların və gənclərin aşkara çıxarılması, onların həvəsləndirilməsi və təlimdə rəqabətin yaradılmasında fənn olimpiadaları müstəsna rol oynayır.

Ağstafa rayonunun ümumtəhsil məktəblilərinin 9, 10, 11-ci sinif şagirdlərinin fənn olimpiadalarında fəal iştirakının təmin edilməsi məqsədilə

**QƏRARA ALIRAM**

1. "Olimpiada Hazırlıq Mərkəzi"nin əsasnaməsi təsdiq edilsin.
2. "Olimpiada Hazırlıq Mərkəzi"nin fəaliyyətinin təşkili əsasnaməyə uyğun olaraq Ağstafa Rayon Təhsil Şöbəsi tərəfindən təmin edilsin.
3. "Olimpiada Hazırlıq Mərkəzi"nin məşğələlərinin Heydər Əliyev Mərkəzində keçirilməsinə şəraitin yaradılması Ağstafa Rayon Mədəniyyət və Turizm Şöbəsi tərəfindən təmin edilsin .
4. Sərəncamın icrasına nəzarət Ağstafa RİH başçısının müavini-İctimai -siyasi və humanitar məsələlər şöbəsinin müdiri Lalə Eyyubovaya həvalə edilsin.

***Məhərrəm Quliyev,***
***Ağstafa rayon icra hakimiyyətinin başçısı***

## Ağstafa rayon icra hakimiyyəti başçısının SƏRƏNCAMI

Ümummilli lider Heydər Əliyevin zəngin və çoxşaxəli irsini öyrənmək, təbliğ etmək, Azərbaycanın milli-mənəvi dəyərləri və tarixi haqqında biliklərinin nümayiş etdirilmələrinə şərait yaratmaq, daha intellektli şagirdləri üzə çıxarmaq, yeniyetmə və gəncləri intellektual yarışlara həvəsləndirmək və vətənpərvərlik hissini gücləndirmək məqsədiylə

**QƏRARA ALIRAM**

1. Ağstafa rayonunun ümumtəhsil məktəbləri arasında "İntellektual oyunlar" yarışmasının əsasnaməsi təsdiq edilsin.
2. "İntellektual oyunlar" yarışmasını keçirmək üçün aşağıdakılardan ibarət münsiflər heyəti yaradılsın (Siyahı əlavə olunur).
3. "İntellektual oyunlar" yarışmasının keçirilməsi haqqında məktəblərin məlumatdırılması işi Ağstafa rayon Təhsil şöbəsinə həvalə edilsin.
4. Sərəncamın icrasına nəzarət Ağstafa RİH başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Lalə Eyyubovaya həvalə edilsin.

***Məhərrəm Quliyev,***
***Ağstafa rayon icra hakimiyyətinin başçısı***

## İslahatlar davam etdirilməli, sürətli inkişaf təmin olunmalıdır

Rayon icra hakimiyyəti başçısı yanında keçirilən növbətu şura iclasında "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə oktyabr ayının 12-də Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasından irəli gələn məsələlərin Ağstafa rayonunda həyata keçirilməsinə dair" məsələ müzakirə olunmuşdur.

Məsələ ilə əlaqədar RİH başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Aydın Hacıyev məruzə etmişdir.

Məruzəçi qeyd etmişdir ki, 2015-ci ilin doqquz ayı ərzində Ağstafa rayonu üzrə ümumi məhsul buraxılışının həcmi 78.1 milyon manat olmuşdur, bu ötən ilin eyni dövrü ilə müqayisədə 6.4 faiz çoxdur. Adambaşına düşən ümumi məhsul buraxılışının həcmi 5.3 faiz artmışdır. Ötən ilin eyni dövrü ilə müqayisədə sənaye məhsulunun həcmi 6.8 faiz, kənd təsərrüfatı məhsullarının həcmi 16.5 faiz, tikintidə 16.8 faiz, nəqliyyat xidmətində 0.2 faiz, rabitə xidmətində 1.7 faiz, əsas kapitala yönəldilən investisiyaların həcmində 8.5 faiz artım olmuşdur. Əhaliyə göstərilən pullu xidmətlərin həcmi 1.6 faiz, pərakəndə əmtəə dövriyyəsi 5.0 faiz artmışdır. Rayon üzrə orta aylıq nominal əmək haqqı 1.1 faiz artaraq 241.70 manata çatdırılmışdır.

2015-ci ilin doqquz ayı ərzində yerli gəlirlər üzrə proqnoz 106.3 faiz yerinə yetirilmişdir. Yerli gəlirlər 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 306.2 min manat çox icra olunmuşdur.

DSMF-nin Ağstafa rayon şöbəsi 11940 nəfər pensiyaçıya xidmət edir.

*(Davamı 2-ci səhifədə)*

# İslahatlar davam etdirilməli, sürətli inkişaf təmin olunmalıdır

*(Əvvəli 1-ci səhifədə)*

2015-ci ilin doqquz ayı ərzində 312 nəfərə əmək pensiyası təyin edilmişdir, bir nəfərə düşən orta aylıq pensiyanın məbləği rayon üzrə 155.55 manat təşkil edir. 9 ay ərzində pensiyaların maliyyələşdirilməsinə 17.2 milyon manat vəsait xərclənmişdir.

Ağstafa rayon ƏSMM-ndə 4130 nəfər sosial müavinət alan qeydə alınmışdır. Sosial məişət xidməti sektorunda 273 nəfər tənha və ahıl vətəndaşlar xidmət uçotuna götürülmüşdür. Rayon üzrə 4779 nəfərə, 1075 ailəyə ünvanlı sosial yardım verilir, hər ailəyə ödənilən yardımın məbləği 158.56 manat, adambaşına 35.66 manat təşkil edir.

"Azərpoçt" MMC-nin Ağstafa Poçt filialı 2015-ci ilin doqquz ayı ərzində plan proqnoz tapşırıqlarını 107.0 faiz yerinə yetirmişdir. Poçt filialı daxili imkanlar hesabına Aşağı Kəsəmən, Poylu və Köçəsgər kənd poçt şöbələrində cari təmir işləri aparmışdır. Ağstafa PF əhaliyə göstərilən xidmətin keyfiyyətini yüksəltməli və kəndlərdə poçt şöbələri üçün yeni binaların tikintisinin həyata keçirilməsinə nail olmalıdır.

2015-ci ilin 9 ayı ərzində rayon ərazisində fəaliyyət göstərən banklar və bank olmayan kredit təşkilatları vasitəsilə əhaliyə cəmi 23.8 milyon manat kredit verilmişdir. Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına rayon üzrə sahibkarlıq subyektlərinə 68 layihə üzrə 816.0 min manat güzəştli kreditlər verilmişdir. Cari ilin ötən dövrü ərzində əhalinin banklardakı əmanətləri 558.6 min manat və 784.4 min ABŞ dolları həcmində olmuşdur ki, bu ötən ilin eyni dövrü ilə müqayisədə (408min.man) 43.0 faiz çoxdur.

2015-ci il üçün Ağstafa rayon Ərazi Məşğulluq Proqramı hazırlanmışdır. Sosial müdafiəyə xüsusi ehtiyacı olanlar üçün 7 müəssisədə 18 kvot iş yerləri yaradılmışdır. 2015-ci ilin doqquz ayı ərzində 289 nəfər işaxtaran kimi rayon Məşğulluq Mərkəzində qeydiyyata alınmış və 116 nəfər işlə təmin edilmişdir. Ötən dövr ərzində 19 nəfərə işsiz statusu verilmiş və işsizlik müavinəti təyin edilmişdir. Hazırda Məşğulluq Mərkəzində 158 vakant iş yerləri mövcuddur.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası Ağstafa rayonunda tədbirlər planına uyğun həyata keçirilmişdir. Ağstafa rayonu üzrə 2015-ci ilin yanvar-sentyabr ayları ərzində həyata keçirilmiş bir sıra tədbirlər nəticəsində rayonda 554 nəfər işlə təmin olunmuşdur. Rayon üzrə işlə təmin olunanların (473 nəfər) 85.4 faizi daimi işlərdə işləyənlərdir.

Statistik göstəricilərə görə bu ilin 9 ayı ərzində rayonda miqrasiya artımı müsbət saldo ilə nəticələnmiş, rəsmi qeydiyyata alınan nikahların sayı 448, boşanmaların sayı (61) bu göstəricinin 13.6 faizini təşkil edir.

Ağstafa rayonun iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir.Cari ilin 9 ayı ərzində rayon üzrə kənd təsərrüfatı məhsullarının həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 16.5 faiz artmışdır. Bu dövlət tərəfindən fermerlərə verilən dəstək, subsidiya, texnika təminatı nəticəsində əldə olunmuşdur.

Meşə Mühafizə və Bərpası Müəssisəsi tərəfindən 2015-ci ilin 9 ayı ərzində 25 ha meşə əkini aparılmışdır. Meşələrin qorunması və mühafizəsi işi təşkil olunmasına baxmayaraq, Meşə Mühafizə və Bərpası Müəssisəsində və Qarayazı Dövlət Təbiət Qoruğunda ağacların qanunsuz kəsilməsinə az da olsa rast gəlmək olur.

2015-ci ilin ötən dövrü ərzində Ağstafaçay dəryaçasında kifayət qədər su ehtiyatı yığıldığından rayon ərazisində suvarma suyu ilə təminatda ciddi problemlər yaranmamışdır. Hazırda su anbarında 33.0 milyon kub metrdən artıq suvarma suyu mövcuddur. Ağstafaçay Hidroqovşaq İstismar İdarəsi tərəfindən cari ilin 9 ayı ərzində selötürənlərin, suayrıcı qurğuların, dükkerlərin və 18 ədəd hidrotexniki qurğuları, 5 ədəd hidropostlar, 4.0 km beton kanallar cari və əsaslı təmir edilmiş, eləcə də kanallarda lildən və kol-kosdan təmizlənmə işləri aparılmışdır.

Ağstafa Suvarma Sistemləri İdarəsi tərəfindən 2015-ci ilin doqquz ayı ərzində 2 ədəd nasos stansiyası və R-8 kanalında su bölüşdürücü qurğunun əsaslı təmiri, 33 ədəd hidrotexniki, 8 ədəd hidropost və 7.3 km kanalda cari təmir, kanalların lildən və kol-kosdan təmizlənməsi həyata keçirilmişdir. Kənd yaşayış məntəqələrində kanalların təmizlənməsi işlərinə bəzən biganəlik göstərilir, bu da kanalların axıcılıq qabiliyyətini azaldır və nəticədə suvarma suyunda narazılıqlara səbəb olur. Göstərilən nöqsanların aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər görülməlidir.

Ağstafa rayon Baytarlıq idarəsi tərəfindən rayon ərazisində mövcud olan bütün növ kənd təsərrüfatı heyvanları və quşları arasında müalicə və profilaktik tədbirləri həyata keçirilmiş və heç bir yoluxucu xəstəliklər qeydə alınmamışdır.

Şəxsi təsərrüfatlardan fərqli olaraq Dövlət mülkiyyətində saxlanılan müəssisələrdə M.Mikayılov adına DDKTİM MMC-də, Dilbaz atçılıq təsərrüfatında və Ağstafa Atçılıq zavodu MMC-də saxlanılan heyvanların baş sayı azalmaqda davam edir. Hər üç təsərrüfatda göstəricilər aşağı olmaqla, dövlət müəsisələrinə olan borcların miqdarı artır, bu cür vəziyyət təsərrüfat rəhbərlərini ciddi narahat etməlidir.

2015-ci ilin doqquz ayı ərzində rayonda ictimai təşkilatlar, siyasi partiyalarla və kütləvi informasiya vasitələri ilə iş qanunauyğun tənzimlənmiş, "Dini etiqat azadlığı haqqında" Azərbaycan Respublikası Qanunun tələblərinə əməl olunmuş və dini tolerantlıq təmin olunmuşdur.

Təhsil sahəsində maddi-texniki bazanın gücləndirilməsi məqsədilə cari dərs ilində Saloğlu qəsəbə tam orta məktəbi qazlaşdırılmış, rayonun bütün ümumtəhsil məktəbləri cari təmir edilmiş və tədris prosesinə hazır vəziyyətə gətirilmişdir. Ümumtəhsil məktəbləri kompyuter və digər inventar-avadanlıqlarla təchiz olunmuşdur.

Cari ildə Qaçaq Kərəm, Eynallı, şəhər 2 saylı, Saloğlu, Qırılı, Aşağı Kəsəmən, Poylu, Dağ Kəsəmən kənd 2 saylı, Böyük Kəsik, Yenigün kənd tam orta məktəblərində sənəd verənlərin əksəriyyəti, texniki-humanitar təmayüllü liseydə isə 25 nəfər sənəd verən məzundan 23 nəfəri ali məktəblərə qəbul olunmuşlar. Lakin Soyuqbulaq, Kolxəlfəli, Tatlı, Köhnəqışlaq kənd tam orta məktəbinin hər birindən 1 nəfər ali məktəblərə qəbul olunmuşdur. Şəhər 3 saylı tam orta məktəbini bitirən 5 nəfər məzundan heç birinin ali məktəbə qəbul üçün sənəd verməməsi narahatlıq doğurur. 2015-2016-cı dərs ilində ümumtəhsil məktəblərində müəllimlər arasında dərs bölgüsü aparılan zamanı bərabərlik və ədalətlilik prinsipi götürülməmiş və müəllimlər arasında, o cümlədən şəhər 2-saylı tam orta məktəbində olduğu kimi xoşa gəlməz hallara gətirib çıxarmışdır. Bu cür halların qarşısının alınması üçün təxirəsalınmaz tədbirlər görülməlidir.

Əhalinin sağlamlığının qorunmasına dair dövlət siyasətinin həyata keçirilməsinin təmin edilməsi və mövcud olan tibb məntəqələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədi ilə Ağstafa Rayon Mərkəzi Xəstəxanasının Doğum şöbəsinin binasının dam örtüyü dəyişdirilmiş, bina əsaslı təmir olunmuş, binanın həyətində abadlıq işləri aparılmışdır. Şöbə ultrasəs aparatı, yeni loboratoriya cihazları və digər avadanlıqlarla təchiz edilmişdir. Fizioterapiya şöbəsi əsaslı təmir olunaraq müasir avadanlıqlarla təmin olunmuşdur. Təcili yardım şöbəsinə bir ədəd müasir avadanlıqlarla təchiz edilmiş "Mersedes" markalı ambulans gətirilmişdir.

Rayon Mərkəzi Xəstəxanasının baş həkimi səhiyyə müəssisələrinə diqqət, qayğı və nəzarəti gücləndirməli, tələbkarlığı artırmalı, əmək intizamını bərpa etməli, tibb müəssisələrinin vəziyyətini araşdırmalı, tələbat və ehtiyacları müəyyənləşdirməli, onların madditexniki bazasının gücləndirilməsi və mövcud nöqsanların aradan qaldırılması istiqamətində konket tədbirlər həyata keçirməlidir.

Rayonda sanitar təmizliyə riayət olunması, küçə ticarətinin qarşısının alınması, infeksion xəstəliklərinin yaranma mənbələrinin profilaktikası və istehlak vaxtı keçmiş ərzaq məhsullarının satışdan çıxarılması sahəsində ardıcıl tədbirlər həyata kecirilməlidir.

Ağstafa rayon Mədəniyyət və Turizm şöbəsində 2015-ci ilin arxada qalan 9 ayı ərzində mədəni-kütləvi tədbirlərin kəmiyyət və keyfiyyətcə daha da yaxşılaşdırılması istiqamətində səylər artırılmış, bu məqsədlə 70-dən çox mədəni-kütləvi tədbir təşkil olunmuşdur.

Ötən dövr ərzində Ağstafa rayon Mərkəzi Kitabxana Sistemi öz fəaliyyətini əsasən kitabxana-informasiya şəbəkəsinin təkmilləşdirilməsi və inkişaf etdirilməsi, kitabxana fondlarının komplektləşdirilməsi, əhalinin kitabxanaya cəlb olunması, oxuculara xidmətin səviyyəsinin yaxşılaşdırılması, onların informasiyaya olan tələbatının ödənilməsi, kitab təbliğinin gücləndirilməsi, əlamətdar və tarixi günlərin, şair və yazıçıların yubileylərinin qeyd edilməsi istiqamətində qurmuşdur. RİH başçısının tapşırığına uyğun olaraq əhalinin sıx toplaşdığı yerlərdə səyyari kitabxana xidməti təşkil olunmuşdur. N saylı hərbi hissədə qulluq edən əsgər və zabitlərə kitablar paylanılmışdır.

Görülən işlərlə bərabər qeyd olunmalıdır ki, kənd mədəni-maarif müəssisələrində bir sıra həlli vacib məsələlər qalmaqdadır. Əhalinin daha geniş auditoriyasını mədəniyyət müəssisələrinə cəlb etmək üçün əhaliyə göstərilən xidmətlərin çeşidi artırılmalı, əhali ilə əlaqələr genişləndirilməli, hər bir işçinin vəzifə məsuliyyəti artırılmalıdır.

Ağstafa rayon Gənclər və İdman İdarəsi 2015-ci ilin 9 ayı ərzində həyata keçirdiyi tədbirlərlə gənclərin qüvvə və bacarığından, yaradıcılıq potensialından istifadə edərək ölkədə baş verən ictimai-siyasi, sosial iqtisadi, mədəni proseslərin inkişafına qoşularaq, dövlət quruculuğunun möhkəmlənməsinə səfərbər etməyə çalışmışdır. Yeniyetmə və Gənclər arasında vətənpərvərlik işinin yüksəldilməsi, vətənə məhəbbət hissinin artırılması məqsədilə tədbirlərin keçirilməsi işində Gənclər və İdman İdarəsi məsuliyyətini artırmalıdır.

2015-ci ilin doqquz ayı ərzində Ağstafa rayonunda abadlıq-quruculuq və təmir-tikinti sahəsində işlər davam etdirilmişdir.

Rayon mərkəzinin abadlaşdırılması ilə yanaşı rayonun qəsəbə və kəndlərində də abadlıq, tikinti-quruculuq işləri genişləndirilməlidir. Bu sahədə yerli icra nümayəndəlikləri ilə bələdiyyə orqanlarının üzərinə böyük vəzifələr düşür.

Əhalinin təbii qaz yanacağı ilə təmin edilməsində müəyyən işlər görülsə də problemlər də mövcuddur. Ağstafa şəhərində, kənd və qəsəbələrdə son 20 ildə salınmış məhəllələrin qazlaşdırılmasına başlanılmamışdır. Hazırda kür çayının sol sahil yaşayış məntəqələrinin qazlaşdırılması üçün daşıyıcı qaz xəttinin çəkilişi davam etdirilir. Saloğlu və Soyuqbulaq qəsəbələrinə təbii qaz yanacağının verilməsi bərpa olunmuş, H.Aslanov və Soyuqbulaqlar qəsəbəsində qazlaşma başa çatdırılmış, Köçvəlili, Qarayazı, Muğanlı kəndlərinin qazlaşdırılması işləri davam etdirilir. Ağstafa şəhəri də daxil olmaqla əhalinin gücü ilə qazlaşdırılmış yaşayış məntəqələrinin qaz şəbəkələri layihə əsasında yenidən qurulmasına və qazın bərabər təzyiqdə paylanılmasına ehtiyac vardır.

Əhalinin elektrik enerjisi ilə təminatında hesabat dövründə bir sıra işlər görülmüş, sıradan çıxmış transformatorlar bərpa edilmiş 10, 6 və 04 kv elektrik xətlərində cari təmir işləri aparılmış, çürük dayaqlar yenisi ilə əvəz edilmişdir. "Azərişıq" ASC tərəfindən rayon ərazisində 18 ədəd yeni transformator məntəqələri quraşdırılmışdır. Həmin transformatorların istismara verilməsi sürətləndirilməli və yeni yaşayış məhəllələrinin layihə əsasında elektrikləşdirilməsi başa çatdırılmalıdır.

Yol infrastrukturunun yaxşılaşdırılması sahəsində müəyyən işlər görülsə də problemlər mövcuddur. Cari ildə Vurğun-Köçəsgər-Qırılı, Vurğun-Köhnəqışlaq, Ağstafa-Aşağı Kəsəmən, Zəlimxan, Köçvəlili-Qarayazı-H.Aslanov avtomobil yollarının əsaslı təmiri ilə əlaqədar tədbirlər görülməli, Ağstafaçay çayının üzərindəki qəzalı körpünün, Kür çayı üzərindəki və Acı dərədəki avtomobil körpülərinin Ağstafa şəhərindəki yol ötürücünün tikintisi, Köhnəqışlaq kəndində Həsənsu çayının üzərindəki avtomobil körpüsünün əsaslı təmiri üçün tədbirlər görülməlidir. Qeyd olunan problemlərin həlli məqsədi ilə cari ilin ötən dövrü ərzində aidiyyəti orqanlar qarşısında məsələ qaldırılmışdır. Ağstafa şəhərinin küçələrinin asfaltlanması, işıqlandırılması ön plana çəkilməlidir. Ağstafa 26 saylı Yol İstismar İdarəsi balansında olan yolların saxlanılması, istismarının normal təşkili, yol nişanlarının, siqnal dirəklərinin bərpası, təmizlənməsi sahəsində fəaliyyətinə yenidən baxmalıdır. Avtomobil yollarında hərəkəti istiqamətləndirən yol dairələrində qəza hallarının qarşısının alınması məqsədi ilə əks etdirən vinil yol nişanlarının quraşdırılması təmin edilməlidir.

2015-ci ilin ötən dövrü ərzində rabitə sisteminin yaxşılaşdırılması sahəsində bir sıra addımlar atılmış, 539,0 min manatlıq rabitə xidməti göstərilmiş, 15 kənddə və mərkəzi ATS-ə DSLAM-lar quraşdırılmış, internet istifadəçilərinin sayı artırılmış, 1079 abonentə internet verilmiş və 196 abonentə telefon çəkilmişdir. Şəhərin yeni məhəllə sakinlərinin çoxsaylı müraciətləri nəzərə alınmalı telefon çəkilişi üçün yeni imkanlar axtarılmalı, şəhər ərazisindəki rabitə xətləri və dayaqları nizama salınmalıdır.

Rayonun çoxmənzilli yaşayış binalarının, məktəb və bağçaların istilik sistemi ilə təchizatı sahəsində ötən il müəyyən işlər görülsə də cari ildə həlli vacib olan problemlər təhlil edilməli və aradan qaldırılmalıdır. Rayon İcra Hakimiyyəti tərəfindən daxili imkanlar hesabına Yenigün kənd, Vurgun və Saloğlu qəsəbə məktəblərinə, Ağstafa şəhərində 4 mərtəbəli 16 mənzilli yaşayış binasında hər bir mənzilə kombi tipli istilik sistemi quraşdırılmışdır. Lakin istilik sisteminə təbii qazın verilməsi təmin edilmədiyindən qış mövsümündə hər üç məktəbin qızdırılması şübhə altındadır. Növbəti qış mövsümünədək Poylu kənd 1 saylı uşaq bağçasının istilik sisteminə təbii qazın verilməsi məqsədilə kənd icra nümayəndəliyi və bələdiyyə orqanı tərəfindən tədbirlər görülməlidir.

2015-ci ilin doqquz ayı ərzində Ağstafa rayonu İcra hakimiyyəti başçısının aparatına vətəndaşların 567 müraciəti daxil olmuş, rayon İcra hakimiyyəti tərəfindən 6039 nəfər vətəndaş qəbul edilmiş, yerlərdə 25 səyyar qəbulları keçirilmiş, həmin görüşlərdə 5103 nəfər iştirak etmiş, 260 təklif irəli sürülmüşdür.

Məruzə yığıncaqda geniş müzakirə olunmuş və qərar qəbul edilmişdir. Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev iclasda geniş nitq söyləmiş və yığıncağa yekun vurmuşdur.

# 1 noyabr Milli Məclisə seçkilər günüdür

## Beşinci Çağırış Azərbaycan Respublikasının Milli Məclisinə 2015-ci il noyabrın 1-nə təyin edilmiş seçkilərdə 108 saylı Ağstafa seçki dairəsi üzrə qeydə alınmış deputatlığa namizədlər haqqında

## MƏLUMAT

1. **Arabov Rəşad Razim oğlu -**
1989-cu ildə anadan olub, "AVİTA"MMC-də tibbi nümayəndədir. Bitərəfdir, namizədliyi özü tərəfindən irəli sürülmüşdür.

2. **Cəfərov Nizami Qulu oğlu -**
1959-cu ildə anadan olub. Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır, Atatürk Mərkəzinin direktorudur. Namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüşdür.

3. **Dolq Fəxrəddin Firudin oğlu -**
1969-cu ildə anadan olub. İşləmir. Bitərəfdir və namizədliyi özü tərəfindən irəli sürülmüşdür.

4. **Hacıyev Eldar Muxtar oğlu -**
Ağstafa rayonu, Təmir-tikinti MMC-nin direktoru vəzifəsində işləyir. Bitərəfdir və namizədliyi özü tərəfindən irəli sürülmüşdür.

5. **Kərimov Vüqar Əsəd oğlu -**
1973-cü ildə anadan plub. Sahibkardır. Bitərəfdir və namizədliyi özü tərəfindən irəli sürülmüşdür.

## Seçiciləri gözləyirik




Artıq Milli Məclisə seçkilərə sanlı günlər qalır. Məntəqəmiz bu mühüm siyasi kampaniyanın tam demokratik və şəffaf keçirilməsinə tam hazırdır. Ona görə də seçki gününü, seçicilərimizin məntəqənin qapısını açıb məntəqəmizə daxil olacağı anı səbirsizliklə gözləyirik.

Bu il məntəqəmizdə 1400 nəfərdən çox seçici səs verəcəkdir. Onlardan 10 nəfəri seçki məntəqəsinə ilk dəfə qədəm basacaqdır. Deməк olar ki, seçicilərin hamısına əvvəlcədən bildiriş vərəqələri paylanmışdır. Vərəqələr təqdim edilərkən hər bir seçici ilə söhbət aparılmış, yaddaş verilmişdir. İlk dəfə səs verəcək gənclərlə ayrıca islahat aparılmışdır. Onu da deyim ki, məntəqəmizdə səs verəcək seçicilərin siyahısı artıq dəqiqləşdirilib yenidən dürüstləşdirilmiş və böyük vərəqlərə köçürülüb lövhəyə vurulmuşdur.

Hər gün məntəqəmizə xeyli seçici gəlir, seçkilərə dair əyani vəsaitlərlə tanış olur, müəyyən məsələlərlə maraqlanırlar. Məntəqə seçki komissiyasının üzvləri onları xoş üzlə qarşılayır, sorğularına ətraflı cavablar verirlər. Seçki komissiyasının katibi Nadir Hüseynov, üzvlərdən Məhəmməd Kərəvəliyev, Bəsti Məmmədova və başqaları hər gün səhərdən axşama kimi məntəqədə olur, seçicilərin müraciətlərinə qayğı ilə yanaşırlar.

Bir sözlə, məntəqəmiz seçkilərə tam hazırdır. Burada kabinələr tam nizamlanmış, müşahidə kamerası quraşdırılmış, ehtiyat vəsaitlər gətirilmişdir. Yerli və beynəlxalq müşahidəçilər üçün də hər cür şərait yaradılmışdır.

***Elxan Məmmədov,***
***2 nömrəli Ağstafa seçki məntəqəsinin sədri***

## Gənclərlə görüş

Rayon Gənclər və İdman idarəsi Yeni Azərbaycan Partiyası Ağstafa rayon təşkilatının akt zalında rayon tədbir keçirmişdir. "Sənin səsin, sənin gələcəyin" devizi altında keçirilən tədbirin iştirakçıları Milli Məclisə keçiriləcək seçkilərdə ilk dəfə səs verən gənclər olmuşlar. Gənc seçicilərin seçkilərdə fəal iştirakının təmin edilməsi məqsədini daşıyan tədbir canlı və maraqlı keçmişdir.

Tədbirin mahiyyətini açıqlayan rayon Gənclər və İdman idarəsinin rəisi Feyruz Həsənov qeyd etmişdir ki, parlament seçkilərinə hazırlıq rayonumuzda yüksək səviyyədə həyata keçirilir. Təbliğattəşviqat kampaniyaları ardıcıl aparılır. Bu seçkilərdə rayonun gəncləri də fəal iştirak etmək arzusundadırlar. Xüsusilə ilk dəfə səs verəcək gənclər müstəqil səs hüququna malik olub, öz münasibətlərini bildirəcəklər.

Gənclər və İdman idarəsinin rəisindən sonra rayon Ağsaqqallar şurasının sədri Firdovsi Heydərli, Gənclər və İdman idarəsinin baş məsləhətçisi Turan Hüseynov, rayon təhsil şöbəsinin baş məsləhətşisi Əli Cəfəroğlu və Heydər Əliyev Mərkəzinin direktoru Layiq Qələndərov çıxış edərək gənclərə öz tövsiyələrini vermişlər. İlk dəfə səs verən gənclərə çatdırılmışdır ki, seçkilərin demokratik və şəffaf keçirilməsi üçün onların böyük səlahiyyətləri vardır. Belə ki, hər bir gənc seçki günü seçki məntəqəsinə gəlib istədiyi, layiq bildiyi namizədə öz səsini verə bilər.

Tədbirin sonunda çıxış edən gənclər onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirdilər.

## Xoşbəxt gələcəyə səs verəcəyəm

Hələ keçmiş zamanlardan seçkilər günü ağsaqqalların səs verməyə hamıdan əvvəl getməsi bir ənənə şəklini alıb. Bu adət məndə də indiyədək qalıb. Ona görə Milli Məclisə indiki seçkilərdə də adətimə xilaf çıxmayacağam.

Noyabrın 1-də seçki məntəqəsinə hamıdan tez gedənlərdən biri də mən olacağam.

Seçki hər bir dövlətin həyatında ən mühüm siyasi kampaniyadır. Ölkə vətəndaşları öz hüquqlarından istifadə edərək seçkilərdə iştirak edir, dövlətin qüdrətlənməsinə səs verirlər. Xalqın səsvermə yolu ilə ali qanunvericilik orqanına seçəcəyi ləyaqətli namizədlər müstəqil vətənimizin daha da çiçəklənməsinə, dövlətimizin qüdrətlənməsinə var qüvvə ilə çalışacaqlar.

Müstəqil Azərbaycanımızın gündən-günə daha böyük uğurlara imza atdığı bir zamanda mən yenə də əvvəlki kimi vətənimizin xoşbəxt gələcəyinə, xalqımızın günəşli səhərinə səs verəcəyəm.

***Qasım Qasımov,***
***rayon Ağsaqqallar Şurası sədrinin müavini***

## Müəllim əməyi yüksək qiymətləndirildi

***Ağstafa şəhər texniki-humanitar təmayüllü lisey 1994-cü ildən fəaliyyət göstərir. Bu illər ərzində həmin tədris müəssisəsi böyük inkişaf yolu keçmiş və liseydə uğurlu nəticələr əldə olunmuşdur.***

***2007-2015-ci illər ərzində liseyin məzunlarından 21 nəfəri ali məktəblərə qəbul imtahanlarında 600-dən çox bal toplamış, 2 nəfər müəllim "Əməkdar müəllim" fəxri adına, 1 nəfər müəllim "Qabaqcıl təhsil işçisi" döş nişanına, 2 nəfər müəllim gənc nəslin təlim-tərbiyəsi işində fərqləndiyinə görə Təhsil Nazirliyinin fəxri fərmanına layiq görülmüşdür.***

***Liseyin tarix müəllimi Ramiz Nəsirov 2014-cü ildə "İlin ən yaxşı müəllimi" müsabiqəsinin qalibi olmuşdur.***

***Bu günlər məktəbə daha bir şad xəbər gəlmiş, məktəbin tarix müəllimi Dilavər İsgəndər oğlu Qurbanov Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.***



Dilavər Qurbanov 1963-cü ildə Poylu kəndində anadan olmuş, orta məktəbi bitirdikdən sonra Gəncə Dövlət Pedaqoji İnstitutuna daxil olmuş və həmin ali təhsil müəssisəsini bitirdikdən sonra rayonun Qıraq Kəsəmən kəndindəki orta məktəbdə əmək fəaliyyətinə başlamışdır. Bir müddət həmin kənddə, sonralar isə Poylu kəndində ixtisası üzrə tarix müəllimi işləmiş, 2015-ci ildən hal-hazıra kimi isə humanitar liseydə işləyir.

Çoxları kimi Dilavər Qurbanov da bu adı üzərində şərəflə daşıyır və min bir arzu ilə seçdiyi tarix fənnini gənc nəslə həvəslə öyrədir. O, zəhmətkeş bir ailədə böyüyüb boya-başa çatsa da, həmişə müəllim olmaq arzusu ilə yaşamış və bu arzunun reallaşması üçün gecəni-gündüzə qatmış, kitablardan ayrılmamış, onlarla nəfəs almışdır.

Dilavər müəllim bu gün sinfə daxil olub dərsə başlayanda 45 dəqiqənin necə gəlib keçdiyini özü də hiss etmir. Məhz elə buna görədir ki, humanitar liseydə tarix fənninə meyl göstərən şagirdlər dərsdən sonrakı vaxtlarda belə Dilavər müəllimi rahat buraxmır, onlarla əlavə məşğələlər keçmək arzusunda olduqlarını bildirirlər. Dilavər müəllim şagirdlərə çəkdiyi zəhmətin bəhrəsini görəndə özünü dünyanın ən xoşbəxt adamlarından biri hesab edir. Bu il dərs dediyi şagirdlərdən birinin-Elxan Məmmədovun ali məktəbə qəbul imtahanı zamanı 25 sualın 25-nə də düzgün cavab verməsi və onun 640 balla Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasına daxil olması xəbəri Dilavər müəllimin ürəyini dağa döndərmişdir. Ümumiyyətlə, onun dərs dediyi şagirdlərdən qəbul imtahanlarında yüksək bal toplayan müdavimlər daha çoxdur. Onları saymaqla qurtarmaq olmur.

Liseydə olarkən Dilavər Qurbanovla birgə işləyən müəllimlərlə xeyli söhbət etdim. Onun bacarığı, qabiliyyəti, peşəsinə vurğunluğu barədə ürəkdolusu danışdılar. Bu tədris müəssisəsinin direktoru Nağı Nağıyev isə söhbət zamanı təkcə onu bildirdi ki, Dilavər müəllim bacarıqlı müəllim olmaqla yanaşı həm də çox tez hissə qapılan bir insandır. O, həmişə dərs dediyi şagirdlər barədə düşünür, onların biliklərini daha da zənginləşdirmək üçün yollar axtarır, qədim və müasir tariximizin ən maraqlı anlarını şagirdlərə böyük həvəslə öyrədir. Məhz bu xüsusiyyətlərinə görə Dilavər müəllimi təkcə liseyin müəllimləri deyil, məktəbimizin şagirdləri də ürəkdən sevir, ona böyük hörmət bəsləyirlər. Mən məktəbimizin bütün müəllimləri, şagirdləri adından Dilavər Qurbanovu vətənimizin ən yüksək mükafatına layiq görülməsi münasibətilə ürəkdən təbrik edir, ona gələcək fəaliyyətində böyük uğurlar arzulayıram.

***İ. Əliyev***

# 20 oktyabr ümumdünya statistika günüdür

BMT-nin Baş Məclisi tərəfindən 2015-ci ilin 20 oktyabr tarixi "Daha təkmil statistika-daha yaxşı həyat" devizi altında "Ümumdünya Statistika Günü" elan olunmuşdur.

Azərbaycanda sovet hakimiyyəti qurulanadək ilk dəfə Şamaxı, Bakı, Gəncə quberniyalarında statistikanın təşkili sahəsində işlər aparılmışdır. Azərbaycan SSR İnqilab Şurasının 9 avqust 1920-ci il tarixli dekretinə və həmin ilin 17 dekabr tarixli qərarına uyğun olaraq,1920-ci ilin dekabrında 15 bölmədən ibarət Mərkəzi Statistika İdarəsinin yaradılmış, həmin idarənin 1 saylı əmri ilə işə qəbul olunmuş 41 nəfərin yalnız 5 nəfəri türk (azərbaycanlı) olmuş, onlardan da 3 nəfəri kuryer işləmişdir.Qərarda qeyd olunmuşdur ki, 1 nəfər müsəlman statistik axtarılıb tapılsın və Mərkəzi Statistika İdarəsinin kollegiyasının tərkibinə daxil edilsin. Nəriman Nərimanov tərəfindən 23 mart 1923-cü ildə imzalanmış məktubunda tgöstərilmişdir ki, Azərbaycanın iqtisadi həyatını canlandırmaq üçün onu zəruri sayılan təcrübəli statistik kadrlarla təmin etmək məqsədilə, İnqilab Şurası ən savadlı adamların, yaxşı olardı ki, türk milliyyətindən olsunlar, MSİ-nin nəzdindəki kurslara göndərilməsi təmin olunsun. Mərkəzi Statistika İdarəsi tərəfindən ilk dövrlərdə yerinə yetirilmiş ən böyük tədbirlərin 1921-ci ildə keçirilmiş ümumazərbaycan kənd təsərrüfatı və 1923-cü ildə şəhərlərdə və şəhərtipli yaşayış məntəqələrində əhalinin siyahıyaalınması olduğu bildirilmişdir.

Azərbaycan Dövlət Statistika Komitəsniin bu günkü fəaliyyəti, BMT və digər beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlığı yüksək səviyyədədir.

***Cümşüd Musayev,***
***Ağstafa Rayon Statistika İdarəsinin rəisi***

# Təşəkkür məktubu

## Ağstafa rayonu Qaçaq Kərəm kənd İ. Həsənov adına tam orta məktəbin direktoru Rahilə Mansırovaya

Hörmətli Rahilə xanim!

Sizi və rəhbərlik etdiyiniz məktəbin əməkdaşlarını məzunlarınızın 2015-ci ilin yayında keçirilmiş qəbul imtahanlarında yüksək nəticələr göstərməsi və yeni tədris ilinin başlanması ilə ürəkdən təbrik edir, uğurlarınızın davamlı olmasını arzu edirəm!

Nəzərinizə çatdırmaq istəyirəm ki, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən 2015/2016-cı tədris ili üçün I ixtisas qrupu üzrə qəbul imtahanlarından yüksək bal toplamış Rüstəmov Nicat Nazim oğlu (676 bal - Neft-qaz mühəndisliyi) Azərbaycanın nüfuzlu ali təhsil müəssisələrindən olan Bakı Ali Neft Məktəbinin tələbəsi adını qazanmışdır.

Ölkəmizin gələcək inkişafı üçün yüksək elmi biliklərə və milli-mənəvi dəyərlərə malik nümunəvi gənclər yetişdirdiyinizə görə Siz başda olmaqla, rəhbərlik etdiyiniz məktəbin müəllim kollektivinə öz dərin təşəkkürümü bildirirəm.

***Elmar Qasımov,***
***Bakı Ali Neft məktəbinin rektoru***

# Kəskin süst iflic xəstəliyinin qarşısının alınması üçün tur keçirilir

Ümumdünya Səhiyyə Təşkilatı Avropa Regional Bürosunun verdiyi məlumata əsasən 2015 - ci ilin avqust ayında Ukraynada dövr edən 1 tip vaksin polivirusu ilə əlaqəli 2 kəskin süst iflic hadisəsi qeydə alınmışdır.

Aşkar olunmuş polivirus ştammının Ukrayna ərazisindən kənara yayılma ehtimalının aşağı olmasına baxmayaraq, ÜST-ün tövsiyələrinə uyğun olaraq Respublikada polimelitdən azad ərazi statusunun saxlanması üçün digər ölkələrdən gətirilmə poliovirusların vaxtında aşkar edilməsi və əks epidemik tədbirlərin həyata keçirilməsi üçün ciddi epidemioloji nəzarətin təmin olunması məqsədi ilə Səhiyyə Nazirliyinin "Polimelitə qarşı tədbirlərin gücləndirilməsi barədə" 28.09.2015 - ci ilin 82 saylı əmrinin 1.2 və 2.1 bəndinə əsasən 0 - 5 yaşınadək uşaqlar arasında cari ilin oktyabr - noyabr ayında 2 turdan ibarət 1 tur ( 19 - 24) oktyabar , 11 tur ( 23- 28 ) noyabr ayı əlavə immunlaşma tədbirləri həyata keçiriləcəkdir.

Hər hansı səbəbə görə polimelitə qarşı peyvənd olunmayan uşaqların OPV vaksini ilə peyvənd olunması uşaqlar arasında kəskim süst iflic hadisələrinin baş verməsinin qarşısını alacaqdır. Rayonumuza 0 - 5 yaşlı uşaq əhalisinin sayına uyğun OPV vaksini gətirilmişdir. Bütün vaksinlər tibb məntəqələrinə paylanılmışdır.

Əziz valideyinlər Sizdən xahiş edirik ki, yaşadığınız ərazidə yerləşən tibb məntəqəsinə gedib uşaqlarınızı OPV vaksini ilə peyvənd olunmasını təşkil edin. Uşaqlar vaxtlı - vaxtında qoruyucu - profilaktik peyvəndlərini alarlarsa onlar heç bir infeksion xəstəliklərə yoluxmazlar. Sağlam bədəndə sağlam ruh olar.

***Z.Nəbiyeva,***
***Ağstafa rayon GEM-nin direktoru***

# ELAN

Daxili İşlər Naziri general-polkovnik Cənab Ramil Usubov tərəfindən cari ilin noyabr ayının 7-də Gəncə şəhərində vətəndaşların qəbulu nəzərdə tutulmuşdur.

Vətəndaşlar DİQ-ı əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətinə aid məsələlərlə bağlı müraciət etmək üçün Ağstafa rayon polis şöbəsində qəbula yazıla bilərlər.

**Əlaqə telefonları:** mob: 070 308 86 49
050 358 09 49
050 366 59 66




Milli sərvətimiz olan kitaba maraq göstərilməsi rayon ictimaiyyəti arasında gündən-günə genişlənir. Sərgiyə gələnlərin əksəriyyətini məktəbli gənclər və yaşlı nəsil təşkil edir.

Şəhərimizin S.Vurğun adına Mədəniyyət və İstirahət parkında keçirilən kitab sərgisi daha maraqlı olur.

***Şəkildə: parkda təşkil olunmuş kitab sərgisindən bir görünüş.***

# İdmançılarımızın qələbəsi

***Bu günlər Qazax rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə uşaq və yeniyetmələr arasında müstəqillik gününə həsr olunmuş karate-do üzrə açıq rayon birinciliyi keçirilmişdir.***

Yarışda Gəncə, Şəmkir, Tovuz, Qazax idmançıları ilə yanaşı Ağstafa idmançıları da iştirak etmişlər. Gərgin mübarizə şəraitində keçən yarışda idmançılarımız xüsusi fəallıq göstərmişlər. 6-7 yaşlı idmançılar arasında keçirilən yarışda Sərdar Yusifov, 8-9 yaşlı idmançılar arasında Vüsal Qəmbərov 1-ci yerə çıxmışlar. Digər yaş qrupları arasında keçirilən yarışlarda isə Kamil Alməmmədov, Amin Alməmmədov, Rafiq Hüseynov, Emil Cəfərov, Mərdan Mehdiyev yarış cədvəlinin ikinci pilləsinə qalxmışlar. Ümumiyyətlə, Ağstafa idmançıları yarışlarda daha cəsarətlə çıxış etmiş və komandamız ümumi medal sayına görə birinci yerə çıxmışdır.

# Etibarsız sayılır

Eynallı kənd sakini Kavıyev Abil Sabir oğlunun adına olan JN № 598 nömrəli (kod 50200038) Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

* * *

**Ağstafa rayonu Vurğun qəsəbə sakini Fərzəliyev Asif Hafiz oğlunun adına olan JN № 110 nömrəli Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı və Torpağın mülkiyyətə verilməsinə dair JN-793 nömrəli Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.**

* * *

"N" saylı hərbi hissənin müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu əsgər Hüseynov Əziz İsrafil oğluna məxsus şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

**Ağstafa şəhər sakini mərhum Hacıyev Nuru Əkbər oğlunun adına olan 570 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

* * *

Ağstafa şəhər sakini Hacıyeva Diləfruz Həsən qızının adına olan 158 saylı Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

* * *

**"N" saylı hərbi hissənin müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu əsgər Abbaszadə İntiqam Şəhraz oğluna məxsus şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

* * *

Zəlimxan kənd sakini Əliyeva Gülşən Məmmədalı qızının adına verilmiş 488 nömrəli "Qeydiyyat vəsiqəsi" itdiyi üçün etibarsız sayılır.

* * *

**Aşağı Kəsəmən kənd sakini Kazımov Alyar Məmmədvəli oğlunun adına verilmiş 250 nömrəli "Qeydiyyat vəsiqəsi" itdiyi üçün etibarsız sayılır.**

* * *

Ağstafa rayonunda yaşamış Qasımov İsgəndər Eldar oğluna 11 may 2010-cu il tarixdə verilmiş 442837 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**BAŞ REDAKTOR:**

**İBRAHİM ƏLİYEV**

**Həmtəsisçi:**
***"Ağstafa" qəzetinin jurnalist kollektivi***

***Şəadətnamə № 308***

***Redaksiya heyəti***

***L.Eyyubova, K.Abbasov, V.Əkbərov, İ.Əliyev, N.Mehdixanlı, F.Vəliyev, İ.Mustafayev, A.Tağızadə***

***Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.***

***Ünvan:***
***Ağstafa şəhəri, Heydər Əliyev pros. - 10***
***Tel: 5-14-56***
***mob: (050) 344-26-20***
***Tiraj: 1000***